TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

______________ E.M.Ağayev

"22" April 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROSPAN** şərbət
PROSPAN®

**Tərkibi**
*Təsiredici maddə:* 1 ml şərbətin tərkibində 7 mq sarmaşıq yarpaqlarının quru ekstraktı (ekstragent – etanol 30% (5-7,5:1) ) vardır.
*Köməkçi maddələr:* təmizlənmiş su, kalium sorbat,susuz limon turşusu, kristallaşan sorbitol mayesi, ksantan kitrəsi, albalı aromatizatoru

**Təsviri**
Açıq-qəhvəyi rəngdə, bir az bulanıq, albalı ətirli şərbət.

**Farmakoterapevtik qrupu**
Bitki tərkibli bəlğəmgətirici vasitə.
**ATC kodu:** R05CA

**Farmakoloji xüsusiyyətləri**
Öskürəyə qarşı bitki tərkibli preparat. Bəlğəmgətirici, mukolitik və bronxospazmolitik təsir göstərir. Bəlğəmin qatılığını azaldır və onun xaric olmasını asanlaşdırır.
***Farmakokinetikası***
Preparat sarmaşıq yarpaqlarının quru ekstraktından ibarət olduğuna və tərkibində bioloji aktiv maddələr kompleksi olduğuna görə farmakokinetik tədqiqatların aparılması mümkünsüzdür.

**İstifadəsinə göstərişlər**
Nəfəs yollarının çətinayrılan bəlğəmli öskürəklə müşayiət olunan kəskin və xroniki iltihabi xəstəliklərinin müalicəsində bəlğəmgətirici vasitə kimi.

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı yüksək həssaslıq, saxaraza/izomaltaza çatışmazlığı, fruktozaya qarşı həssaslıq, qlükoza-qalaktoza malabsorbasiya sindromu.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Preparatı öskürəkəleyhinə digər dərman vasitələri ilə birlikdə istifadə etmək olmaz, çünki bu, bəlğəmin xaric olmasını çətinləşdirir.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatın istifadəsinin təhlükəsizliyinə dair məlumat az olduğuna görə, xəstələrin bu qrupuna preparatı qəbul etmək məsləhət görülmür.

**Xüsusi göstərişlər**
Preparatın tərkibində alkoqol, şəkər və boya maddələri yoxdur. Saxlama müddəti ərzində şərbətin rənginin bir az bulanıq olması və dadının cüzi dəyişməsi mümkündür, lakin bu, preparatın terapevtik təsirini dəyişmir.
Şəkərli diabet xəstələri nəzərə almalıdır ki, 2,5 ml şərbətin tərkibində 0,08 ÇV-yə müvafiq olan 0,963 q sorbitol vardır.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparat nəqliyyat vasitəsini idarə etmək və yüksək diqqət və sürətli psixomotor reaksiya tələb edən digər potensial təhlükəli fəaliyyət növləri ilə məşğul olma qabiliyyətinə təsir etmir.

**İstifadə qaydası və dozası**
Daxilə. Südəmər uşaqlara (0-1 yaş) gündə 2 dəfə 2,5 ml. Körpə uşaqlara (1-6 yaş) gündə 3 dəfə 2,5 ml. Məktəbli uşaqlara və yeniyetmələrə gündə 3 dəfə 5 ml. Böyüklərə gündə 3 dəfə 5-7,5 ml.
Preparatın dozalara bölünməsi ölçü stəkanı vasitəsi ilə aparılır.
Müalicə kursu xəstəliyin ağırlığı ilə ölçülür, minimal müalicə kursu 1 həftə təşkil edir.
Terapevtik effektin möhkəmləndirilməsi üçün simptomlar yox olduqdan sonra 2-3 gün ərzində müalicəni davam etdirmək məsləhət görülür. Vəziyyət yaxşılaşmadığı zaman həkimə müraciət etmək lazımdır. İstifadə etməzdən əvvəl qarışdırın!

**Əlavə təsirləri**
Allergik reaksiya mümkündür.
Çox nadir hallarda preparatdan istifadə zamanı işlədici təsir (tərkibində sorbitol olduğuna görə) müşahidə edilə bilər.

**Doza həddinin aşılması**
Təyin edilmiş dozadan artıq olan dozanın (gündə 3 dəfədən artıq) qəbul edilməsi ürəkbulanma, qusma və diareyaya səbəb ola bilər. Bu halda xəstə həkimə müraciət etməlidir.
Müalicə: preparatdan imtina, simptomatik terapiya.

**Buraxılış forması**
100 ml və ya 200 ml şərbət, dozalayıcı-tıxacı, polietilen burulan qapağı olan tünd şüşə flakonlarda. 1 flakon ölçü stəkanı və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlama şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır!

**Yararlılıq müddəti**
3 il.
Flakon açıldıqdan sonra yararlılıq müddəti – 3 ay.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Engelhard Arzneimittel GmbH və Ko. KG, Almaniya /